Cəlil Məmmədquluzadə - 150

Xalq azadlığının carçısı “Molla Nəsrəddin” jurnalının təsir dairəsi

Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən “Molla Nəsrəddin” jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

XIX əsrin 60-cı illərindən əsrimizin 30-cu illərinə qədər yaşamış Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı Azərbaycan tarixinin mürəkkəb siyasi-ictimai hadisələri dövrünə təsadüf edir.

C.Məmmədquluzadə doğma xalqının həyatına, mənəviyyatına bütün varlığı ilə bağlı olan gözəl müəllim, istedadlı jurnalist və mütəfəkkir yazıçı idi. Onun ədəbi-bədii yaradıcılığı mürəkkəb hadisələrlə dolu bir dövrün inikasıdır. Xalq həyatının elə bir sahəsi yoxdur ki, C.Məmmədquluzadənin əsərlərində öz dolğun, bədii ifadəsini tapmamış olsun. Bu cəhətdən onun əsərlərini salnamə adlandırmaq olar. Azərbaycan xalqının böyük ideallarının təcəssümü olan bu salnamənin əsas motivi humanizm və xalqlar dostluğu ideyalarıdır. Əlbəttə, bu, təsadüfi deyildir. Zaqafqaziya xalqlarının ictimai-siyasi, iqtisadi və mədəni əlaqələri tarixinə dərin bələd olan C.Məmmədquluzadə xalqların səadətini, xoşbəxtliyini onların birliyində, dostluq münasibətlərində görürdü. Odur ki, Mirzə Cəlil istər bədii yaradıcılığında, istərsə də ictimai fəaliyyətində xalqlar dostluğuna böyük əhəmiyyət verirdi. Mütəfəkkir yazıçının Ermənistana və onun xalqlarına münasibəti bu cəhətdən səciyyəvidir.

Məlum olduğu kimi, C.Məmmədquluzadə 1887-ci ildə - Qori müəllimlər seminariyasını bitirdikdən sonra iki il İrəvan quberniyasının Uluxanlı, Baş Noraşen kəndlərində müəllimlik etmişdir. O, öz ilk mənzum pyesini - “Çay dəstgahı”nı bu kəndlərin birində yazmışdır.

Əyalətdə qatı dindarlığı ilə tanınan Nehrəmə heç kəs müəllim getmək istəmirdi, çünki bura “müəllimlərin sürgün yeri” kimi baxırdılar. Fanatizmin, dini mövhumatın bu qaranlıq bucağına ancaq xalqın gələcəyini düşünən, avam adamların kütləşmiş şüurlarında öz qüvvəsinə, sabahkı gününə inam yaratmaq istəyən fədakar insanlar gələ bilərdilər.

Xalqın maariflənməsi dövrün ən zəruri tələbi idi.

“Mirzə Cəlil şagirdlərin valideynlərini tez-tez məktəbə toplayar və uşaqların tərbiyəsi haqqında onlarla söhbətlər” aparardı. O, öz pulu ilə kasıb uşaqlara kitab, dərs vəsaiti, ayaqqabı alar, xəstə uşaqları müalicə edərdi. Lakin nehrəmlilər uşaqlarını məktəbə vermək istəmir, ya da könülsüz göndərirdilər. Belə bir şəraitdə avam valideynlər rus məktəbinə qarşı təbliğat aparır, öz uşaqlarını məktəbə göndərənləri “kafir”, “dinsiz”, “yolunu azmış” elan edirdilər. “Mirzə Cəlil heç bir zaman ümidsizliyə qapılmır, ruhdan düşmürdü”. O, təmkin, səbir və inadla avam kütlələrin qəlbinə yol tapır, onlara əsl həqiqəti başa salmağa çalışırdı.

Soyuq qış gecələrində kəndlilərin söhbət üçün Mirzə Cəlilin başına toplaşdıqlarından, ədibin də onlara öz əlyazmalarını oxuduğundan bəhs edən müəllim dostlarından biri yazır: “Xatırımdadır, Mirzə Cəlil “Danabaş kəndinin əhvalatları” povestini (o, Nehrəmi “Danabaş kəndi” adlandırmışdı) oxuyarkən, orada olan qocalar bir-birinin üzünə baxır və deyirdilər ki, “onun oxuduqlarının hamısı bizim kəndimizdəndir”. Mirzə Cəlil isə cavab verirdi ki, “xeyr, canım, bu Danabaş kəndidir, sizin kənd deyil”.

Mirzə Cəlil Nehrəmin tam avamlığı və cəhaləti içərisində həqiqətən bir işıq mənbəyi idi. O, bir müəllim kimi daim bu cəhaləti dağıtmağa cəhd edirdi. Mirzə Cəlil bütün qəlbini və qüvvətini gənc nəslin təlim-tərbiyəsi işinə sərf edir, uşaqları mədəni adamlar etməyə çalışırdı.

C.Məmmədquluzadənin fəaliyyəti bununla məhdudlaşmırdı. O, Naxçıvan ziyalıları ilə də sıx əlaqə saxlayır, onlarla tez-tez görüşürdü.

C.Məmmədquluzadə İrəvan şəhərinə köçür. O, öz xatirəsində bu barədə yazır: “Mən müəllimliklə on ildən artıq davam edə bilmədim və 1898-ci ildə köçüb gəldim İrəvan şəhərinə ki, qeyri bir işlə məşğul olam. Bir az vaxt naçalnik divanxanasında mütərcim oldum və hətta polis məmuru da oldum. Ancaq gördüm ki, bu mənim işim deyil. Buradan çıxdım, özümü verdim ədliyyə idarələrinə və dava vəkili və advokat olmaq eşqinə düşdüm və bundan ötrü mülki hüquq qanunlarından və qeyri-hüquq kitablarından mütaliəylə məşğul oldum. Ancaq məni xarab edən iş o idi ki, hər nə işə gedirdimsə, gərək bir yekə kağız əlimə alıb hekayədən, nağıldan, cızma-qaralayaydım...”.

C.Məmmədquluzadə quberniya şəhəri İrəvanda rüşvətxor hakimlərin və çar məmurlarının avam, yoxsul kəndlilərin başına gətirdikləri müsibətlərin bilavasitə şahidi olur. Məhkəmədə vəkillik edərək, məhkum kəndlilərin haqqını, hüququnu müdafiə edirdi. Lakin bütün bu cidd-cəhdlər əbəs idi. Çünki üsul-idarəsində “parçala hökm sür” şüarı olan mütləqiyyətin acgöz məmurlarından ədalət gözləmək olmazdı. Çar məmurlarının ruhu da, canı da rüşvət idi.

C.Məmmədquluzadə ədalətsiz məhkəmələrdən ikrah hissi ilə ayrılır. O, “Yan tütəyi”, “Poçt qutusu” hekayələrini burada qələmə alır.

C.Məmmədquluzadə ictimai həyatda gördüyü haqsızlıqları bəzən rus mətbuatında tənqid edirdi. O, 1902-ci ildə “Kaspi” qəzetində çıxan “İrəvan” sərlövhəli məqalələrində şəhərin “daşlı-kəsəkli, bomboş” bir yerində zəhmətsevər adamların gərgin əməyi nəticəsində salınmış qəşəng meyvə-üzüm bağlarına bələdiyyə idarəsinin zorla sahiblənməsi cəhdini açıb göstərmişdi. Müəllif təəssüflə bildirir ki, “əzəldən bu bağların sahibi olan savadsız adamlar həmin bağları az qabarlı” əllərində saxlaya bilmirlər. Məqalədə şəhər duma məmurlarının zəhmətkeşlərin ərizəsinə etinasızlığı, su kəməri çəkilməsinin ləngidilməsi də tənqid edilmişdir. Əlbəttə, xalqa bağlı olan yazıçı ötəri tənqidi yazılarla təsəlli tapa bilməzdi. O, ürək sözlərini geniş kütlələrə söyləmək üçün doğma dilində mətbuat yaratmaq arzusunda idi.

1903-cü ildə C.Məmmədquluzadənin Tiflisdə “Şərqi-Rus” qəzetində əməkdaşlıq etməsi onun arzusuna qolqanad verir. Çox çəkmir ki, gənc yazıçı “Molla Nəsrəddin” jurnalı çıxarmağı qərara alır.

“Molla Nəsrəddin” jurnalını C.Məmmədquluzadə dediyi kimi, “...təbiət özü yaratdı, zəmanə özü yaratdı”. “Molla Nəsrəddin” nəşrə başlamazdan əvvəl “Şərqi-Rus” qəzetində əməkdaşlıq edən C.Məmmədquluzadə ilk dəfə burada “Poçt qutusu” hekayəsini, erməni yazıçısı Xanzadənin (Qaraxanovun) “Arvad” hekayəsini və sairə tərcümələrini çap etdirmişdi. Mətbuatın ürəklərə yol tapan ən gözəl vasitə olduğunu, onun nüfuzedici qüvvətli təsirini, kütləviliyini görən C.Məmmədquluzadə “Şərqi-Rus” mətbəəsi bağlandıqdan sonra qəzetin mətbəəsini öz əlinə keçirir, mətbəəyə “Qeyrət” adı verərək, burada mütərəqqi mahiyyətdə olan əsərlər, kitabçalar, habelə inqilabi intibah-namələr nəşr etməyə başlayır. Həmin ildə ədib “Novruz” adlı bir qəzet nəşr etmək fikrinə düşür. Az sonra bu niyyətdən əl çəkir”.

C.Məmmədquluzadənin ilk leqal bolşevik qəzeti “Kavkazki raboçi listok”da çıxış etməsi də bu dövrə təsadüf edir, “Binəsiblər” və “Xeyir-dua” adlı inqilabi ruhlu məqalələri ədibin “Molla Nəsrəddin” jurnalındakı fəaliyyətinə gözəl bir müqəddimə saymaq olar.

C.Məmmədquluzadənin müəyyən fasilələrlə olsa da, 25 ilə yaxın bir dövr ərzində naşiri və redaktoru olduğu “Molla Nəsrəddin” (1906-1931) məzlum kütlələrin siyasi-ictimai həyatını, məişətini əks etdirmişdir. Onun hər səhifəsində burjua-demokratik inqilabları dövrünün nəfəsi duyulur. Oyanan Şərqin bütün təzadlı həyatı, azadlıq və səadət uğrunda mübarizə əzmi “Molla Nəsrəddin”də müəyyən dərəcədə öz dolğun əksini tapmışdır. Əlbəttə, bu təsadüfi deyildi. “Molla Nəsrəddin”in əhatə dairəsi geniş, vəzifələri böyük olmuşdur. Dövrün ictimai-siyasi hadisələrinin tələblərindən irəli gələn problematik məsələlərə “Molla Nəsrəddin” öz münasibətini bildirməli idi.

Mütəfəkkir yazıçı “Milli intibah dövrü” qəzet çıxarmaq, məfkurəvi mübarizə meydanına çıxmaq arzusunda idi. O, istəyirdi ki, feodal-patriarxal Şərq həyatını əsrlərdən bəri çulğamış şəriət zülmətini, fanatizmi, ətaləti, avamlığı “iti qələm” ilə, maarif ziyası ilə yox etsin, kütləşmiş şüurları oyatsın, kütlələri azadlıq uğrunda mübarizəyə sövq etsin.

Məlum olduğu kimi, XX əsrin əvvəllərində çar hökumətinin inqilabi hərəkatın qarşısını almaq niyyəti ilə gördüyü tədbirlərdən biri beynəlmiləlçi ideyaların yayılmasına son qoymaq, milli ədavəti qızışdırmaq olmuşdur. Belə bir dövrdə “Qoç-Dəvət”, “Təkamül”, “Yoldaş” qəzetləri çarizmin milli siyasətini ifşa edir, xalqları beynəlmiləlçiliyə, birliyə çağırırdı. “Qoç-Dəvət” qəzeti öz səhifələrində verdiyi “Məhəbbət”, “Ey adam” şeirlərində və ayrı-ayrı məqalələrində xalqların tarixən dostluğundan danışır, “şeytan”ın fitnəkar əməllərini ifşa edirdi.

Əlbəttə, bu məsələlər xalqın vətənpərvər-demokrat ziyalılarını da düşündürürdü. M.Ə.Sabir hələ 1905-ci ildə “Həyat” qəzetində “Beynəlmiləl” şeirini çap etdirmiş, xalqları həmrəyliyə səsləmişdi. C.Məmmədquluzadə “Kavkazski raboçi listok”da Cənubi Azərbaycanın məzlum fəhlələrinə “öz hüquqlarını qazanmaq və azad nəfəs almaq” üçün inqilabçı rus fəhlələrinin ənənələrindən istifadə etməyi məsləhət görmüş, onları bir bayraq altında birləşməyə çağırmışdı. Şübhəsiz, demək olar ki, bütün bunlar “Molla Nəsrəddin”in ideya istiqamətinə həlledici təsir göstərmişdir.

C.Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalının birinci nömrəsində “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım”, - deyə müraciət etdiyi zaman xalqa böyük etimad bəslədiyini bildirirdi. C.Məmmədquluzadə yoxsul kütlələrə “dostu ilə düşmənini” tanıdacağına inanırdı. Onun əsas məqsədi oxucularını düşündürmək, ona öz ləyaqətini başa salmaq, ağır mənəvi zülm olan din və mövhumatın əsarət və istismar vasitəsi olduğunu açıb göstərmək, beləliklə, geniş xalq kütlələrində mübariz əhval-ruhiyyə yaratmaq idi.

C.Məmmədquluzadə yazırdı: “Mən bilirdim ki, islam millətləri içində nə qədər ki, şəriətin əhkamı caridir, nə qədər ki, şəriət sahibləri məscid və minbərlərdən camaatı behişt və huri vədləri ilə iqfal etməkdədirlər və nə qədər ki, avam müsəlman ümmətləri dini mövhumatın içində çürüməkdədirlər, o qədər də onların gözü açılmayacaq ki, yaxşı ilə yamanı seçə bilsinlər. Və azadlığın qədrini bilə bilsinlər və bilməyincə də məlumdur ki, azadlıqların heç birindən istifadə edə bilməyəcəklər”.

Mövhumatın ağır mənəvi cəhaləti bütün Şərq ölkələrini bürümüşdü. Odur ki, C.Məmmədquluzadə Şərq xalqlarının səadəti uğrunda mübarizə aparmağı hər bir “əhli qələmin” müqəddəs borcu sanırdı.

“Molla Nəsrəddin” jurnalı humanizm və beynəlmiləlçilik ideyalarının böyük carçısı idi. Ona görə də, ilk nömrəsindən son nömrəsinədək xalqların qardaşlıq ideyasını yayır, mülkədar-burjua şovinizminə qarşı amansız mübarizə aparırdı. Beynəlxalq siyasi-ictimai həyatın və ayrı-ayrı xalqların məişətinin təsviri jurnalın şöhrətini artırırdı.

Maraqlıdır ki, C.Məmmədquluzadə öz bədii əsərlərində Cənubi Qafqaz xalqlarının qabaqcıl, mütərəqqi meyillərini həmişə təqdir etmiş, onları öz həmyerlilərinə nümunə göstərmişdir. Yaxın və Orta Şərqin fanatizmi, dindarlığı, ətaləti və avamlığı isə satira atəşinə tutulmuşdur. Mühafizəkar din xadimlərini və müstəbid yerli hakimləri öz səhifələrində rüsvay edən “Molla Nəsrəddin” bütün Şərq aləmini oymaq-oymaq gəzib-dolaşır, kütlələrlə həmsöhbət olur, onlara “düzü-düz, əyrini-əyri” göstərirdi. “Molla Nəsrəddin” satirik ustalar— O.İ.Şmerlinq, R.Rotter, Ə.Əzimzadə, Behzad və b. çəkdiyi sadə, mənalı karikaturalarla savadsız adamlara da öz mətləbini anladır, onları güldürürdü. Əlbəttə, bu, sadəcə, gülüş xatirinə deyil, düşündürmək, səfərbər etmək xatirinə güldürmək idi.

“Molla Nəsrəddin”in öz səhifələrində, demək olar ki, dünyanın bütün xalqlarının həyatına dair külli miqdarda yazılar verməsi onun pərəstişkarlarının sayını artırırdı. Məmmədəli Sidqi öz xatirələrinin bir yerində yazırdı ki, Nyu-Yorkda, Hindistanda, Kəlkuttədə, Londonda, Berlində, Parisdə, Romada, İstanbulda, Misir və İranın hər tərəfində abunəçilərimiz var idi.

“Molla Nəsrəddin”in hər yerdə rəğbətlə qarşılanmasının bir sirri də onun cəsarətli çıxışları, yoxsul kütlələrin istəklərinin qüdrətli tərcümanı olmasında idi. Özbək xalqı “Molla Nəsrəddin”ə özünün havadarı kimi baxır, onun hər nömrəsini səbirsizliklə gözləyirdi.

(davamı növbəti saylarımızda)

Teymur ƏHMƏDOV.